Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azad rayonlarımızda vergi güzəştləri və azad sahibkarlığın təşviqi...

## Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi;

**İşğaldan azad olunmuş ərazilərdə azad sahibkarlığın inkişafı və liberal iqtisadiyyatın təşviqi istiqamətində bir sıra işlərin görülməsi hədəflənib. Şübhəsiz, dövlət bu istiqamətdə ciddi addımlar atır, hədəfə çatmaq üçün müxtəlif yerli və beynəlxalq əhəmiyyətli proqramlar həyata keçirir. Görülən işlər sırasına vergi güzəştlərinin tətbiq edilməsindən tutmuş digər məsələlərə qədər xeyli istiqamət daxildir.**



Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviq edilməsi yönündə atılan addımlarla, görülən işlərlə bağlı "Liberal İqtisadçılar" İB-nin sədri Akif Nəsirli ilə söhbət etdik.

**- Akif bəy, bu istiqamətdə artıq qanunvericilik bazası formalaşdırılıb...Qanunvericilik sahəsində islahatlar sahibkarlığın inkişafına hansı şəraitləri yaradıb?**

- Azad ərazilərdə azad sahibkarlığın inkişafı və liberal iqtisiyyatın təşviqi dövlətin əsas hədəflərindəndir. Prezidenti İlham Əliyevin 2021-ci ilin dekabr ayının 10-da "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamında işğaldan azad edilmiş ərazilərdə iqtisadi resursların və əmək resurslarının səmərəli idarə olunması, onların emal sənayesinin və xidmət infrastrukturunun yaradılmasına yönəldilməsi məqsədilə vergi güzəştlərinin, sosial sığorta və digər güzəştlərin tətbiqi ilə bağlı məsələ burada əks olunurdu. Sənədə vurğulanırdı ki, işğaldan azad edilmiş ərazilərdə özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, həmin ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyən edilməsi

**- Bu məsələrin həlli üçün müxtəlif qanunvericilik aktlarında da dəyişikliklər oldu ki, bu da sahibkarların ora maraq göstərməsinə və nəticədə sahibkarlığın inkişafına imkan verib. Bu barədə nə demək olar?**

- Qanunvericilik aktlarına dəyişikliklər labüd idi. Bu sahibkarlar qarşısında böyük imkanlar açıb. Onlar üçün xeyli sayda güzəştlər edilib ki, bunun da çox böyük səmərəsi olacaq.

Prezidentin "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 2021-ci il 10 dekabr tarixli 3037 nömrəli Sərəncamın icrası ilə bağlı "Sosial sığorta haqqında", "Dövlət rüsumu haqqında" və "Sosial müavinətlər haqqında" qanunlarda, Miqrasiya Məcəlləsində və Əmək Məcəlləsində dəyişikliklər edilib. Burada əsas məqsəd işğaldan azad edilmiş ərazilərdə sahibkarlıq mühitinin yaxşılaşdırılması üçün əlverişli şəraitin yaradılması, sığortaedənlərin xərclərinin minimum səviyyəyə endirilməsi, müasir bilik və bacarıqlara malik mütəxəssislərin həmin ərazilərə cəlb olunmasıdır.

"Sosial sığorta haqqında" Qanuna edilmiş dəyişikliyə əsasən, rüb ərzində sığortaedənin vəsaiti hesabına muzdlu işdən gəlir əldə edən sığortaolunanların xeyrinə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının məbləği 10 il müddətində dövlət büdcəsindən:

2023-cü il yanvarın 1-dən 2026-cı il yanvarın 1-dək - 100 faiz;

2026-cı il yanvarın 1-dən 2029-cu il yanvarın 1-dək - 80 faiz;

2029-cu il yanvarın 1-dən 2031-ci il yanvarın 1-dək - 60 faiz;

2031-ci il yanvarın 1-dən 2033-cü il yanvarın 1-dək - 40 faiz miqdarında subsidiyalaşdırılacaq.

Muzdlu işçisi olan sahibkarlarla yanaşı, sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin özlərinə görə ödədiyi məcburi dövlət sosial sığorta haqlarının 100 faizi miqdarında subsidiyalaşdırılması nəzərdə tutulur. Həmçinin "Sosial sığorta haqqında" Qanunun 14.5.1-1-ci maddəsində qeyd edilən fəaliyyət növləri ilə fərdi qaydada (muzdlu işçi cəlb etmədən) məşğul olan fiziki şəxslər tərəfindən "Sadələşdirilmiş vergi üzrə sabit məbləğin və məcburi dövlət sosial sığorta haqqının ödənilməsi haqqında qəbz" və "Fərqlənmə nişanı" alınarkən ödənilmiş məcburi dövlət sosial sığorta haqqı 10 il müddətinə 100 faiz subsidiyalaşdırılıb.

**- Bu güzəştlərin tətbiq edilməsi sahibkarlara stimul verir, onlar ora daha çox can atırlar.**

- Vergi Məcəlləsinə dəyişikliklər bütün sahibkarlıq subyektlərini ƏDV, gəlir, mənfəət vergisi, sosial sığorta ödənişləri kimi bu tip ödənişlərdən azad edir. Bu isə işğaldan azad olunmuş ərazilərdə fəaliyyət göstərməyi planlayan sahibkarlar qarşısında geniş imkanlar açır. Eyni zamanda da onlara böyük stimul verir. Lakin hələ bu da son deyil, azad ərazilərdə fəaliyyət göstərən sənaye obyektlərinin, rezidentlərin idxal məhsulları da gömrük rüsumundan azad edilib. Bu dünya təcrübəsində bir be ölkə ərazisində tətbiq olunmuş bir təcrübədir.

**- Bu təcrübənin nəticəsi nə vəd edir?**

- Bu çox gözəl, effektiv nəticə verən bir təcrübədir. Bu təcrübədən istifadə edən ölkələr qarşılarına qoyduqları məqsədlərə çox böyük müvəffiqiyyətlə çatıblar. Hesab edirəm ki, Azərbaycan hökumətinin bu ilin yanvar ayının 23-dən qəbul etdiyi qərar çox doğru qərardır və bu qərar işğaldan azad olunmuş ərazilərdə ərazilərin bərpası dövrünü bir neçə dəfə qısalda, prosesi tezləşdirə bilər. Bu boş ərazilərin bərpa edilməsi üzrə mövcud model bir neçə ölkənin təcrübəsindən keçib və uğur qazanıb. Bizim də uğur qazanacağımız şübhə doğurmur.

**- "Yaşıl enerji" layihəsinin bu istiqamətində əhəmiyyəti barədə nə demək olar? Səhv etmiriksə, bu sahəyə də güzəştlər tətbiq edilib.**

- İşğaldan azad edilən ərazilərdə "Yaşıl enerji" nin inkişafı üçün geniş imkanlar yaradılıb. Bu istiqamət 10 il güzəşt alan sahələrdən biridir və bunun üçün işğaldan azad olunmuş ərazilərdə 10 hektarlarla ərazi ayrılıb. Bu günəş enerjinin istehsalı üçündür. Eyni zamanda həmin ərazilərdə çoxlu dağ çayları var və o dağ çaylarından da elektrik enerjinin alınması istiqamətində işlər aparılır. Artıq 2 su elektrik stansiyası istifadəyə verilib. Daha bir su elektrik stansiyası bərpa edilib və bir neçə su elektrik stansiyası da tikilir. İşğaldan azad edilmiş ərazilərdə "Yaşıl enerji" nin inkişafı həm də Azərbaycan hökumətinin beynəlxalq təşkilatlar qarşısında götürdüyü karbon emissiyasının aşağı salınmasına bir dəstəkdir.

Bəllidir ki, 2050-ci ilə qədər Azərbaycan hökuməti beynəlxalq təşkilatlar qarşısında karbon emidsiyasını 50 faiz aşağı salınması öhtəliyi göturub. Bu öhtəliyi də yerinə yetirilməsidə də məhz işğaldan azad edilən ərazilərdə tikinti, quraşdırma, bərpa işlərinin aparılmasında öz töhfəsini verəcək.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**